# 2021-cu il üzrə İnklüziv Təhsil Mərkəzi tərəfindən görülmüş işlər haqqında hesabat

## "Nizami Gəncəvi ili"nə həsr olunan "Sətirlər istedadlı ürəklərdən gəlir" adlı tədbir keçiriləcək

***UNEC İnklüziv təhsil mərkəzinin təşkilatçılığı ilə "Nizami Gəncəvi ili"nə həsr olunan "Sətirlər istedadlı ürəklərdən gəlir" adlı tədbir keçiriləcək.***

23 fevral saat 19.00-da Zoom platforması üzərindən təşkil olunacaq tədbirdə tələbələr, inklüziv təhsil üzrə mütəxəssislər və digər iştirakçılar Nizaminin əsərlərindən parçaları, eləcə də müəllifi olduqları şeirləri səsləndirəcəklər, vətənpərvərlik mövzusunda musiqi parçaları və muğamlar ifa edəcəklər.

## UNEC-də əlilliyi olan tələbələrin poeziya axşamı: Sətirlər istedadlı ürəklərdən gəlir

***UNEC İnklüziv təhsil mərkəzinin təşkilatçılığı ilə "Nizami Gəncəvi ili"nə həsr olunan "Sətirlər istedadlı ürəklərdən gəlir" adlı tədbir keçirilib.***

Tədbirdə UNEC-in tələbələrlə iş üzrə prorektoru, dosent Səadət Qəndilova istedadlı tələbələrin tanıdılması və asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə ədəbi-bədii görüşlərin keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, UNEC-də bu istiqamətdə mütəmadi olaraq layihələr həyata keçirilir, istedadlı gənclərin bacarıqlarının aşkarlanaraq, daha da inkişaf etdirilməsi üçün universitetdə onlara müvafiq şərait yaradılır. S.Qəndilova əlilliyi olan tələbələrin UNEC-də rahat şəkildə təhsil alması məqsədilə inklüziv mühitin yaradıldığını, həmin tələbələrin daim universitetin diqqət və qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıb.

Tədbirin moderatoru, UNEC İnklüziv təhsil mərkəzinin koordinatoru Sevinc Məhsimova iştirakçıları təqdim edərək, tədbirin proqramı barədə məlumat verib.

Tədbirdə Maliyyə fakültəsinin tələbəsi, Radio UNEC-də İnklüziv təhsil proqramının aparıcısı Nigar Hüseynova Nizami Gəncəvinin həyatı və əsərləri barədə danışıb. Qiyabi təhsil alan tələbələrdən Məhsim Bədirxanlı müəllifi olduğu şeirləri səsləndirib, Seyfullah Əliyev isə öz romanı haqqında məlumat verib. Paraolimpiyaçı Amid Həsənquliyev vətənpərvərlik mövzusunda özünün müəllifi olduğu musiqini ifa edib, gənc yazıçı Samir İmanov müəllifi olduğu kitablarından  söz açıb.

Görüşdə iştirak edən Türkiyənin Qlobal Əngəllilər Vəqfinin üzvü, sosioloq Mansur Meçin əlilliyi olan gənclərin cəmiyyətə inteqrasiyasından bəhs etdikdən sonra, müəllifi olduğu "Yaşam istərim" şeirini səsləndirib.

Tədbir Səbail rayon 219 saylı evdə təhsil orta məktəbin müəllimi Maral Vəliyeva, 1-ci Qarabağ müharibəsinin qazisi Bəhlul Əliyev, İstedadlı Əlillər ictimai birliyinin üzvləri Təvəkkül Əliyev və Mənsur Rəhimovun Nizami Gəncəvinin qəzəllərinə həsr olunan çıxışları, muğam ifaları ilə davam edib.

## Pandemiyanın inklüziv ali təhsilə psixoloji təsirləri barədə beynəlxalq vebinar keçirilib

***UNEC və Avrasiya Universitetlər Birliyinin (EURAS) birgə təşkilatçılığı ilə "İnklüziv ali təhsildə psixoloji möhkəmlik: COVID-19 pandemiyasının tələbələrə təsirləri" mövzusnda beynəlxalq vebinar keçirilib.***

Turkiyə və Azərbaycanın ali təhsil müəssisələrinin akademik heyətinin iştirak etdiyi tədbirdə COVID-19 pandemiyasının tədris prosesinə təsirləri, əlilliyi olan və olmayan tələbələrin psixoloji sabitliyi, mövcud durumda yaranan problemlər və onların həlli yolları müzakirə olunub

Vebinarın moderatoru, UNEC İnklüziv təhsil mərkəzinin koordinatoru Sevinc Məhsimova inklüziv pandemiya dövründə ali təhsildə yaranan problemləri, postpandemiya dövründə təhsil sisteminin transformasiyasının əlilliyi olan tələbələrə təsirlərdən danışıb.

İstanbul Aydın Universitetinin prorektoru Prof.Dr.Mehmet Reşat Başar təmsil etdiyi universitetdə əlilliyi olan tələbələrə təqdim olunan xidmətlərdən, eləcə də COVID-19 pandemiyası dövründə təhsilin təşkilindən bəhs edib.

Sonra Global Engellilər Vakfının qurucusu Necdet Öztürk əlilliyi olan insanların fəaliyyət istiqamətlərindən və GƏV-in təqdim etdiyi layihələrdən danışıb.

Xəzər Universitetin Psixologiya şöbəsi və psixoloji məsləhət mərkəzinin direktoru Mələk Kərimova pandemiya dövründə əlilliyi olan tələbələrin davranışları, onların dərslərdə iştirakı zamanı yarana biləcək problemlər və həlli yolları barədə məlumat verib.

Türkiyənin Yeni Yüzyıl Universitetinin Əngəllilər Uyğulama ve araşdırma mərkəzi rəhbəri Prof.Dr.İmer Okar isə Türkiyə universitetlərində inklüziv tədrisin təşkili, xüsusən Yeni Yüzyıl Universitenində əlilliyi olan tələbələrin psixoloji problemləri, bu tələbələr üçün tədris prosesinin təşkili, həyata keçirdikləri layihələr haqqında söz açıb.

Sonra “Loqos” psixoloji və nitq inkişaf mərkəzinin psixoloqu Günay Əfəndiyeva karantin rejimində təhsil prosesində yaranan problemlərə diqqət çəkərək, davranış pozuntuları və onların həlli yolları barədə məlumat verib.

Tədbir müzakirələrlə davam edib.

## “Onlayn təhsildən oflayn təhsilə” mövzusunda psixoloqla görüş keçirilib

***UNEC İnklüziv Təhsil Mərkəzi, Loqos Psixoloji və Nitq İnkişafi Mərkəzinin birgə təşkilatçılığı ilə “Onlayn təhsildən oflayn təhsilə” mövzusunda psixoloqla silsilə görüşlər keçirilir.***

UNEC İnklüziv Təhsil Mərkəzi və Loqos Psixoloji və Nitq İnkişafi Mərkəzi arasında imzalanmış memorandum çərçivəsində həyata keçirilən ilk tədbir Rus İqtisad Məktəbində təşkil olunub. Görüşlərin keçirilməsinin məqsədi COVİD-19 pandemiyası dövründə tələbələrdə yaranan psixoloji problemlərin aradan qaldırılması və ümumi psixoloji vəziyyətin yaxşılaşdırılması olub. Görüşdə Loqos Psixoloji və Nitq İnkişafi Mərkəzinin aparıcı mütəxəssisləri Günel Axundova, Rəna Quliyeva və Emin Səfərov pandemiyanın təhsilin təşkilinə olan təsirlərindən, tələbələrin pandemiya şəraitinə adaptasiyası və onların qarşılıqlı münasibətlərindən danışıblar. Eləcə də tələbələrlə bu istiqamətdə müzakirələr aparıblar.

## UNEC-in inklüziv təhsil mühiti barədə beynəlxalq konfransda məlumat verilib

***Azərbaycan Respublikası Əlil Təşkilatları İttifaqı (ƏTİ) Finlandiya Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatı dəstəyi ilə 3 dekabr Əlilliyi olan şəxslərin beynəlxaləq günü münasibəti ilə “Hamı üçün layiqli iş – heç kim kənarda qalmasın” mövzusunda konfrans təşkil edilib.***

Konfransı giriş sözü ilə Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimli açaraq 3 dekabr Əlilliyi olan şəxslərin beynəlxalq günü və layihə haqqında məlumat verib.

Sonra BMT-nin Azərbaycandakı əlaqələndiricisi Vladanka Andreyeva BMT-nin Azərbaycanda olan nümayəndəliklərinin əlillik sahəsində həyata keçirdikləri layihələr və hədəflər mövzusunda çıxış edib.

Finlandiyanın Cənubi Qafqaz üzrə səfiri Kirsti Narinen isə konfrans iştirakçılarına videomüraciətlə çıxış edərək görülmüş işlərə münasibət bildirərək, Finlandiya hökümətinin Azərbaycanda dəstəklədiyi layihələr barədə məlumat verib.

Tədbirdə əlilliyi olan şəxslərin məşğulluğunun təmin olunması, özünəməşğulluq proqramları çərçivəsində görülən işlərdən danışılıb, bu sahədə müxtəlif beynəlxalq təşkilatlarla, eləcə də özəl şirkətlərlə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

UNEC İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimova müzakirələrdə iştirak edərək və UNEC-də inklüziv təhsilin təşkilindən məlumat verib.

## UNEC tələbəsinin unudulmaz günü: "Gözlə Məni" şeirlər kitabının təqdimatı

***UNEC-in tələbəsi Məhsim Bədirxanlının "Gözlə Məni" şeirlər kitabının təqdimatı və imza günü keçirilib.***

Kitab UNEC rəhbərliyinin dəstəyi ilə İqtisad Universitetinin nəşriyyatında dərc olunub.

UNEC-in 2 saylı tədris binasının kitabxanasında təşkil olunan təqdimat və imza günündə UNEC KİM-in direktoru Adilə Abdullayeva, UNEC İnklüziv mərkəzinin koordinatoru Sevinc Məhsimova, müəllim və tələbələr, həmçinin Məhsim Bədirxanlının valideyni də iştirak edib.

Təqdimata gələnlər Məhsim Bədirxanlını təbrik edərək, ona təhsilində və yaradıcılığında uğurlar arzulayıblar.

UNEC-in Qiyabi və əlavə təhsil mərkəzinin 3-cü kursunda təhsil alan Məhsim Bədirxanlı kəllə beyin travması əlaməti əlilliyi olan tələbədir. "Gözlə Məni" şeirlər toplusu uşaqlıqdan şeir yazan Məhsim Bədirxanlının ilk kitabıdır.

## Tələbələrə "Ailələr və tələbələr arasında münasibətlər" mövzusunda psixoloji dəstək göstərilir

***UNEC İnklüziv Təhsil Mərkəzi, Loqos Psixoloji və Nitq İnkişafi Mərkəzinin birgə təşkilatçılığı ilə "Ailələr və tələbələr arasında münasibətlər" mövzusunda psixoloqla silsilə görüşlər keçirilir.***

UNEC İnklüziv Təhsil Mərkəzi və Loqos Psixoloji və Nitq İnkişafi Mərkəzi arasında imzalanmış memorandum çərçivəsində növbəti görüş Maliyyə və mühasibat fakültəsində olub.

Görüşlərin keçirilməsinin məqsədi COVİD-19 pandemiyası dövründə tələbələrdə yaranan psixoloji problemlərin aradan qaldırılması və ümumi psixoloji vəziyyətin yaxşılaşdırılması, ailələr və gənclər arasında yaranan problemlər və onların aradan qaldırılması yolları olub. Görüşdə Loqos Psixoloji və Nitq İnkişafi Mərkəzinin aparıcı

mütəxəssisləri Günel Axundova, Orhan Oğulcan Aydoğan və Rəna Quliyeva ailələrin gənclərin universitet və ixtisas seciminə təsirlərindən danışıblar, eləcə də tələbələ-valideyn, ailə-tələbə-karyera münasibətlərindən danışıblar. Tələbələrlə bu istiqamətdə müzakirələr aparıblar.

## Bir D.A.D. - Dost Akademik Dünyası yaratmaq olar!

**moderator.az**

***Bir D.A.D. (Dost Akademik Dünyası) yaratmaq olar! Global böhranlar təhsilə necə təsir edir?***

COVID-19 pandemiyası iqtisadiyyatın bütün sahələrinə təsir etdi və həyat tərzimizi tamamilə dəyişdirdi. Bəşəriyyət tərəfindən qəbul edilən "lokdaun" şübhəsiz ki, hamımıza yeni şəraitdə yaşamağı öyrətdi. Və bu dövrdə bir çox sahələrdə nəinki müqavimət göstərildi, həm də yeni reallığa uyğunlaşma bacarıqları göstərildi. Pandemiya zamanı yeni çətinliklərin öhdəsindən gəlmək üçün özünüqoruma instinkti vacib olsa da, kollektiv və sürətli qərar qəbul etmənin daha əhəmiyyətli rol oynadı. Bu dövrdə ən çox təsirlənən sahələrdən biri ali təhsil sahəsini adlandırmaq olar. Üstəlik, ali təhsil, fəaliyyətini onlayn formata çevirməyə daha az hazır olanlardan biri idi. Bəzi ali təhsil müəssisələri daha çevik olub, distant təhsilə keçməyə bacara bildilər. Bunlardan ən tez uygunlaşa bilən UNEC olduğunu qeyd etmək olar. Dünyada ali təhsilini dəstəkləmək üçün həyata keçirdiyi bütün tədbirlərini və nəticələrini bütovlükdə qiymətləndirmək çətindir.

COVID-19 pandemiyası ilə mübarizə tədbirlərindən biri də bütün dünyada təhsil müəssisələrinin bağlanması olub. Bu, 2020-ci ilin aprel ayının ortalarında pik həddinə çatan görünməmiş təhsil böhranına səbəb oldu. 16-19 aprel tarixləri arasında dünyanın 190-dan çox ölkəsində məktəblər və universitetlər bağlanıb ki, bu da 2 milyara yaxın uşaq və gəncin, yəni təhsil alanların 93%-dən çoxunun çoxunun həyatına birbaşa təsir edib. Təbii ki, bütün universitetlərə "lokdaun" ciddi təsir edib. Təhsil haqqı ödənişlərini də nəzərdə tutmaq lazım. Təhsil haqqını ödəyə bilən tələbələrin sayı azaldığı üçün özəl universitetlər sağ qalmaq üçün mübarizə aparır. Böhran tələbələrin və müəllimlərin işə götürülməsindən daha çox tədqiqat sahəsində hiss olundu, cünki tədqiqatların maddi, sosial və sürətli iqtisadi nəticələr alabilmə qabiliyyəti itirilib.

Böhranın başlanğıcında baş verən hadisələr sosial bərabərsizliyin xarakterini də dəyişdirdi. Nisbətən varlı ölkələr də böyük problemlərlə üzləşdilər. Böhranlar təhsil büdcələrinin kəsilməsinə də səbəb olur, məhz böhran zamanı təhsil sisteminin daha çox investisiyaya ehtiyac vardır. Pandemiya dövründə bəzi ölkələrdə təhsilin keyfiyyətində güzəştlərə

getməli oldular. Bir neçə ölkədə ali təhsil üçün dövlət maliyyəsi kəsilib və bir çox universitetlər yaxın gələcəkdə özəl investisiyaların azalacağından qorxdular.

Həqiqətən də, yeni iş yerlərinə və yaranan imkanlara çıxış imkanı verən təhsilə dəstək iqtisadi stimullaşdırma planlarında mühüm rol oynayır. Bir neçə ölkədə təhsil xidmətlərin təkmilləşdirilməsi pandemiya sonrası bərpa planlarının əsas komponentidir.

İnnovativ təhsil, yaradıcılıq və adaptiv sahibkarlıq bacarıqları möhüm rol oynayır. Bu da öz növbədə təhsil, təlim-tədris sisteminin daimi təkmilləşdirilməsini tələb edir. AR Prezidentinin təhsilə xüsusi yanaşmasını və ölkəmizdə ucqar rayonlarda yaşayan təhsil alanlar üçün, və ümumən bütün bölgələrdə sürətli "internetləşmə" prosesini qeyd etmək olar. Daha az inkişaf etmiş ölkələrdə isə dünyanın güclü qurumları, böyük təşkilatlar və xüsusən dövlətlər tərəfindən dəstək göstərilməlidir.

Pandemiya qlobal akademik ictimaiyyəti distant və onlayn təhsil də daxil olmaqla yeni tədris metodlarına müraciət etməyə məcbur edib. Bu, virusun yayılması ilə mübarizə aparmağa kömək edərkən xəstəliyin mənfi emosional, fiziki, psixoloji və iqtisadi nəticələrinin öhdəsindən gəlməli olan həm tələbələr, həm də müəllimlər üçün çətin olduğunu sübut etdi. Yeni koronavirus məşğulluq, təhsil, enerji, kənd təsərrüfatı və qlobal iqtisadiyyatın digər sahələrinə, o cümlədən vətəndaşların psixo-emosional vəziyyətinə ciddi təsir göstərib.

Mövcud böhranın iqtisadi təsiri də əhəmiyyətlidir. BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti hesab edir ki, COVID-19 pandemiyası qlobal iqtisadiyyatın 2021-ci ilin sonuna qədər 2% zəyifləməsinə səbəb olub. Beynəlxalq Əmək Təşkilatı isə qlobal işsizliyin 2021-ci ilin sonunadək 5,3 milyon və 24,7 milyon aralığında artacağını proqnozlaşdırıb. Ümumdünya Ticarət Təşkilatı – bu dövürdə dünya ticarətində 15-35% azalma oldugunu qeyd edib.

İqtisadi böhran bir başa universitetlərin fəaliyyətinə çox cəhətdən təsir edir: əmək bazarına daxil olabiləcək məzunlar üçün iş imkanları azalır; təhsil haqqının ödənilməsində problemlər; dövlət qurumları qarşısında götürdüyü öhdəlikləri istənilən səviyyədə yerinə yetirməməsi; və ən əsası, psixoloji vəziyyətin dəyişməsi, müəyyən şəraitdə internete üstünlük verilməsi ilə bağlı təhsil alanların davranışının dəyişməsi. Pandemiyanın bu təsirlərin bərpası uzunmuddətli prosesdır.

COVID-19 böhranı təhsil keyfiyyətini aşağıya doğru tendensiya davam edir. İnkişaf etmiş ölkələrdə təhsilə investisiya və maddi gəlirlərin azalmaqla inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrə keyfiyyətsiz təhsil xidmətinə üz tutublar. Və bu tendensiya davam

edəcəyini prognozlaşdırılır. Burda, son bir iki ildə meydana çıxan saxta online universitetlər, koleclər və s.qeyd etmək olar.

Ümumdünya təhsildə proqnozlaşdırılan dəyişiklikləri beş kateqoriyaya bölmək olar:

1) davamlı təhsil və tədqiqat problemlərini həll etmək üçün təcili dəyişikliklər;

2) artıq işləyən və ya növbəti bir neçə ay ərzində işlə təmin oluna bilən tələbələrin məşğulluğunu saxlamaq üçün zəruri dəyişikliklər;

3) proseslərdə, iş rejimlərində və yeni resursların inkişafında qəfil dəyişikliklər nəticəsində yaranan uzunmüddətli dəyişikliklər;

4) valideynlərin və tələbələrin ali təhsil almaq imkanları baxımından universitetlərin iş modelində dəyişikliklər;

5) dəyişiklik dövründə keyfiyyətli ali təhsili təşviq etmək üçün lazım olan makro səviyyəli dəyişikliklər.

Ortaya çıxan çağırışlara lazımi şəkildə cavab vermək üçün ali təhsil müəssisələri keyfiyyət, uyğunluq və cavabdehliyə diqqət yetirməlidirlər. Bunun üçün ayrı-ayrı iştirakçılar və müstəqil fəaliyyət göstərən qurumlar təhsil proqramlarının planlaşdırılması və həyata keçirilməsinin ənənəvi üsullarından imtina etməlidirlər. Böhran zamanlarında açıq, çevik və müvafiq öyrənmə sistemlərini inkişaf etdirmək üçün milli və beynəlxalq səviyyədə daha çox birgə çalışmalarına ehtiyac var.

Bununla belə, bəzi müsbət cəhətlər də var. Bir çox elmi araşdırmalar COVID-19 böhranı sonrası yeni peşələrin yaranacağı, yeni iş imkanları hesabına universitetlərə qəbulun artacağı gözlənilir. Qeyd etmək lazımdır ki, indiki böhran əvvəlkilərdən öz növü və nisbətən aşağı maddi zərərlərlə alternativ texnologiyaya əsaslanan təhsil modellərinin mövcudluğu ilə fərqlənir.

Mövcud böhran üç səbəbə görə müxtəlif ssenarilərlə davam edə bilər: 1) insan sağlamlığı risk altında olduğundan, bir çox ənənəvi sektorlar/sənayelər tələblərin xarakterində və kəmiyyətində dəyişikliklərlə istehlakçı davranışında əhəmiyyətli dəyişikliklərlə üzləşə bilər; 2) tələbələr daha aşağı qiymətə alternativ təhsil modellərini sınadıqdan sonra ənənəvi təhsil modellərinə qayıtmaq istəməyə bilərlər; 3) əmək bazarlarında baş verən dəyişikliklər insanları başqa sahələrə keçmək üçün öz fərqli bacarıqlarından istifadə etməyə səbəb ola bilər (məsələn, aviasiya və qonaqpərvərlik menecerləri oxşar bilik, bacarıq və

münasibətlərin tətbiq olunduğu sahələrdə iş üçün müraciət edə bilərlər). Bu meyarlara əsaslanan ali təhsildə həm kurrikulumda, həm də təlim modellərində dəyişikliklər olub.

Mövcud böhranı aradan qaldırmaq üçün ali məktəblər çevik hərəkət etməli, yenilikçi düşünməli və bu problemin təsirini azaltmaq üçün əməkdaşlıq etməlidir. Bu, möhüm nəticələr əldə edilməsində yeni həlli yollarının tətbiq etmək üçün öyrənmə prosesini necə planlaşdırdığımız və həyata keçirəcəyimizlə bağlı dəyişməyə hazır olmağı və düşüncə tərzini dəyişməyi tələb edir. Dünyanın bütün ali təhsil müəssisələri birgə əməkdaşlıq vasitəsilə tek təhsil platformasını "D.A.D." yaradıb istifadə edəbilər.

***Sevinc Məhsimova, UNEC İnklüziv Təhsil Mərkəzinin koordinatoru***